***Möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan İlham Əliyevin iştirakı ilə Bakıda Hərbi Qənimətlər Parkının açılması Azərbaycan Ordusunun gücünü dünyaya bir daha nümayiş etdirdi. Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının, eləcə də qüdrətli dövlətlərin Ermənistanın 30 il ərzində davam edən işğalçı siyasətinin qarşısının alınmasında acizlik nümayiş etdirməsi xalqımızı təngə gətirmişdi. Rəşadətli ordumuz, başda müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev olmaqla, 44 gün ərzində düşməni diz çökdürdü. 2020- ci il noyabrın 10-da Ermənistan rəhbərliyi təslim olduqlarını rəsmən təsdiqlədi və kapitulyasiya aktını imzalamaq məcburiyyətində qaldı. Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasında olduğunu bir daha təsdiqlədi.***



# Qələbəmiz yaddaşlara əbədi həkk olundu

Düşmənlərimiz bu müharibədə Silahlı Qüvvələrimizin qarşısında duruş gətirə bilmədi və ən qiymətli silah-sursatını atıb qaçdı. Ötən il dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilən Zəfər paradında diqqətçəkən məqamlardan biri də düşməndən qənimət kimi götürülmüş silah-sursatı əks etdirən böyük bir lövhə oldu. Zəfər paradında həmin texnikanın bir qismi nümayiş etdirildi. Bütün dünyanın, həmçinin xalqımızın gözü qarşısında Ermənistanın məğlubiyyəti, erməni fərariliyi bir daha nümayiş olundu. Eyni zamanda, Prezident İlham Əliyev Hərbi Qənimətlər Parkının salınması haqqında təşəbbüs irəli sürdü. Çox qısa zamanda görülən genişmiqyaslı işlər artıq yekunlaşdı və açıq səma altında həmin park artıq ziyarətçilərin ixtiyarına verildi.

Hərbi Qənimətlər Parkında ermənilərdən qənimət kimi götürülmüş ən dəyərli silah-sursatı əks etdirən lövhə yenidən nümayiş etdirilir. Yük maşınlarının burada sərgilənən nömrələri götürülmüş texnikanın, sadəcə, kiçik hissəsini təşkil edir. Düşmənin 522 yük maşını məhv edilib, qənimət kimi götürülüb. Zəfər paradının ən yaddaqalan və rəmzi kompozisiyalardan biri Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad olunan torpaqlarda düşməndən qənimət götürdüyü 2000-dən çox avtomobilin nömrə nişanından hazırlanan lövhə də parkın ərazisindədir.

Bu parkın çox böyük əhəmiyyəti var. Parka gələn turistlər, əcnəbilər Azərbaycan Ordusunun gücü, qüdrəti ilə yaxından tanış olacaqlar. Eləcə də, yetişən gənc nəsil bir daha əmin olacaqdır ki, Qarabağ Azərbaycandır! Heç bir qüvvə, təzyiq və təhdid ölkəmizi öz mövqeyindən döndərə bilməz. Buraya gələn hər bir ziyarətçiyə Vətən müharibəsinin gedişatı barədə təqdim edilən eksponatlar Azərbaycana Zəfər qazandıran döyüşlərin bir daha göz önündə canlandırılmasına geniş imkan yaradır. Bu park, həmçinin tarixi Qələbəmizin yaddaşlara əbədi həkk olunmasında mühüm rol oynayacaq və hər birimizdə qürur hissi yaradacaq.

***Gülbəniz BAYRAMOVA,***
***Əlillərə və Aztəminatlı Ailələrə İctimai Dəstək Fondunun direktoru***

Xalq qəzeti 2021.- 15 aprel.- S.7.